# Azərbaycanda söz, fikir və mətbuat azadlığının formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

Azərbaycan mətbuatı “Əkinçi”dən başlayan ənənələri davam etdirərək xalqımızın mədəniyyətinin, adət ənənələrinin, tolerantlıq dəyərlərinin carçısı olub və indi də belədir. Bu gün Azərbaycan mediası milli adət-ənənələrimizi, milli ideologiyamız, tariximiz, dilimiz və dinimizi qorumaq, bu dəyərlərimizi gənc nəslə təbliğ etmək işinə böyük töhfə verir. Müvafiq sahədə fəaliyyət göstərən dövlət qurumlarının elə bir tədbiri yoxdur ki, mediada işıqlandırılmasın. Mediada bu istiqamətə xüsusi diqqət həm də milli mənəvi dəyərlərimizi yad təsirlərdən qorumaq, bu mövzunu daim gündəmdə saxlamaq məqsədi daşıyır.

Ümummilli lider Heydər Əliyev həmişə jurnalistlərlə yaxın təmasda olmuş, onların sosial, maddi və mənəvi problemləri ilə maraqlanmış və qələm əhlinə heç vaxt öz köməyini əsirgəməmişdir. Mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsasının qoyulması və inkişaf etdirilməsi ümummilli liderin Azərbaycan mediası və cəmiyyəti qarşısında mühüm xidmətlərindən biridir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə dövlətin media siyasətinin başlıca məqsədi güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübünü çəkən medianın formalaşması və inkişafı olmuşdur. Bu gün Azərbaycan dünyada yeganə ölkədir ki, jurnalistlər dövlət hesabına mənzillə təmin olunurlar.

Ümummilli lider hakimiyyətdə olduğu bütün dövrlərdə söz və məlumat azadlığına, medianın inkişafına xüsusi diqqət göstərib. Azərbaycan SSR-in 1978-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması istər ədəbi sahədə, istərsə də mətbuat sahəsində yeni canlanma yaratdı, Azərbaycan dilində qəzetlərin sayı artırıldı, televiziyada verilişlərin ana dilimizdə yayımı genişləndirildi. Heydər Əliyev Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanması üçün əhəmiyyətli addımlar atıb. Bundan başqa, 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin sərbəst şəkildə məlumat əldə etmək və yaymaq hüququ, KİV üzərində senzuranın yolverilməzliyi təsbit edilib. 1998-ci ildə KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv olunub. 1999-cu ildə “Kütləvi informasiya vasitələri haqqında”, sonrakı illərdə isə medianın fəaliyyətini tənzimləyən digər çoxsaylı demokratik qanunlar qəbul edilib.

Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, mətbuata dəstək məqsədilə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun xətti ilə media layihələrinə 40 milyon manata yaxın vəsait ayrılıb. 2013-cü ildə 156 jurnalistin, 2017-ci ildə isə 255 jurnalistin Prezident İlham Əliyev tərəfindən yeni mənzillərlə mükafatlandırılması dövlətin mediaya verdiyi qiymətin bariz nümunəsidir. “Bu gün birmənalı şəkildə demək olar ki, Azərbaycanda müstəqil demokratik mətbuatı məhz ümummilli lider Heydər Əliyev formalaşdırıb.

# 146 yaşlı mətbuat

Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 146 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu “Əkinçi” qəzeti ilə xalqımızın milli oyanışında yeni səhifə açılıb. Vətənpərvər ziyalı Həsən bəy Zərdabi böyük əzab-əziyyətdən sonra ana dilində ilk qəzetin çapına müvəffəq olmuşdur.

1875-ci ilin 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən “Əkinçi” ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb. “Əkinçi” qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin “Vəkili-naməlumi millət” imzası ilə məqalələri dərc olunurdu.

Azərbaycan milli mətbuatının zəngin inkişaf yolu ictimai fikir tariximizin mühüm bir hissəsidir. Milli mətbuatımız “Əkinçi” ilə başlanan maarifçilik, yeniləşmə, çağdaş mədəni təfəkkür xəttini davam etdirərək xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynayıb. Zərdabi və onunla birlikdə bu qəzetdə əməyi olan maarifpərvər yazarlar xalqı cəhalət və qəflət yuxusundan oyatmağa çalışırdılar. Təbii ki, bütün bunlar dövrün hakim dairələrini rahatsız etməyə bilməzdi. Üstəlik, çarizmin diktəsi ilə özlərini “ziyalı” sayan bəzi üzdəniraqlar da “Əkinçi”nin üzərinə hücuma keçirdilər. Beləliklə, 1877-ci il sentyabrın 29-da “Əkinçi” öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının təməlini qoyan bu qəzet, ikiillik ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. “Əkinçi”dən sonra onun yolunu milli mətbuatın yeni səhifələrini açan “Ziya”, “Kəşkül”, “Kaspi” və digər qəzetlər davam etdirdi.

Mətbuat özlüyündə cəmiyyətin aynası, ictimai şüurun, mənəviyyatın inikasıdır. Bu baxımdan Azərbaycan milli mətbuatı tarixinin ilk səhifələrindən həm də milli-mənəvi dəyərlərimizin daşıyıcısı, fəal təbliğatçısı və qoruyucusu kimi məsul bir missiyanı da yerinə yetirib. Həsən bəy Zərdabinin fəaliyyəti bu baxımdan böyük örnəkdir. Zərdabi 1873-cü ildə peşəkar milli teatrımızın yaranmasında, ilk teatr tamaşasının hazırlanmasında yaxından iştirak etmişdi. O, mütəfəkkir bir ziyalı kimi xalq yaradıcılığına dərindən bələd idi, folklor musiqi nümunələrimizi toplayır, “Əkinçi” qəzetində dərc etdirir, həmçinin dövrün ziyalılarını bu təşəbbüsə qoşulmağa çağırırdı. “Əkinçi” fəaliyyətini dayandırandan sonra da Zərdabi bu yöndə fəaliyyətini davam etdirirdi və 1901-ci ildə ilk dəfə “Türk nəğmələri məcmuəsi”ni nəşr etdirərək bu zəngin mənəvi xəzinəmizin qorunub saxlanmasına töhfəsini verdi.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanda söz və mətbuat azadlığının təmin olunması istiqamətində ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir. Söz və mətbuat, cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqların möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeniyeni addımlar atır.

Müasir qloballaşma dövründə azad və müstəqil kütləvi informasiya vasitələrinin mövcudluğu cəmiyyət həyatında əhəmiyyətli təsirə malikdir. Onun başlıca vəzifəsi cəmiyyəti onu maraqlandıran məsələlər barədə məlumatlandırmaq, zəruri informasiyalarla təmin etməkdir. Siyasi mədəniyyətin formalaşmasında, siyasi plüralizmin dərinləşməsində müstəsna rola malik medianın əsas funksiyası məhz ictimaiyyətin obyektiv informasiyaya olan tələbatını ödəməkdir. Media bu missiyanı qanunvericiliyə zidd olmayan üsullarla informasiyaları toplayıb hazırlamaq və yaymaqla həyata keçirməlidir. Mətbuat cəmiyyətin siyasi həyatının müxtəlif tərəfləri barədə balanslaşdırılmış, obyektiv, qərəzsiz və dolğun informasiya verilməsi yolu ilə siyasi mədəniyyətin təkmilləşdirilməsinin başlıca vasitələri sırasında yer alır.

Tirajlanan söz eyni zamanda ictimai rəyə - əhalinin geniş kütlələrinin əhval-ruhiyyəsinə, davranışlarına, beləliklə də siyasi proseslərə, bütövlükdə siyasətə təsir göstərir. Bu təsirin mahiyyəti ondan ibarətdir ki, kütləvi informasiya vasitələri əldə etdiyi məlumatın hazırlanması, ötürülməsi və yayılmasının müxtəlif üsullarından istifadə etməklə, habelə həmin məlumatı öz şərhləri ilə birlikdə yaymaqla insanlarda müəyyən ideyaların, təsəvvürlərin, mövqelərin formalaşmasına əhəmiyyətli təsir göstərir, cəmiyyətdə müəyyən davranış və fəaliyyət üçün meyllərin yaranmasına kömək edir. Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası ötən 146 ildə müxtəlif dövrlərdə ağır sınaqlara məruz qalsa da hər çətinliyə dözmüş və tutduğu şərəfli yoldan dönməmişdir.

Ötən dövrdə zəngin və şərəfli yol keçən Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsini yaşayır. Müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirmiş, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Ulu öndər tərəfindən qoyulan mətbuatın inkişafına dövlət qayğısı siyasəti bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bu siyasət nəticəsində Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən ölkə kimi tanınır.

**“Qəbələ”**

# İnformasiya mənbəyimiz

Qəzetimizin adı nə az nə çox 88 il əvvəl Qədim Qəbələmizin tarixi salnaməsinə düşüb. Rayonumuzda ilk mətbəənin əsası 1933-cü ildə qoyulub. Qəzet fəaliyyət göstərdiyi dövrlərdə dörd adda buraxılıb. 1933-1952-ci illərdə “Bolşevik Mübarizi”, 1953-1962 ci- illərdə “Mübariz”, 1966-90-cı illərdə “Qalibiyyət” adı ilə nəşr olunub. 1963-65-ci illərdə rayonların birləşməsi ilə əlaqədar Göyçayda (Ağdaşda çıxan “Əmək” qəzeti də daxil olmaqla) “Yeni həyat” adı ilə üç rayonun birləşmiş qəzeti kimi nəşr olunmuş, 1962-ci ildə isə Şəkidə nəşr olunan “Lenin bayrağı” qəzeti ilə birləşmişdir.




**Məsuliyyəti daşıyanlar**

Qəzetin ilk redaktoru 1937-ci ilin mayınadək işləyən Nəriman Həsənov olmuşdur. Nəriman Həsənov may ayında rayonun partiya komitəsinin birinci katibi işləyən Kazım Vəliyevlə birlikdə dəhşətli repressiyanın qurbanı olub.

Əhmədağa Hacıyev (1939-1942), Baba Qəhramanov (1944-1946, 1949-1956), Canan Şirinov (1946-1948), Ramazan İsmayılov (1948-1949, 1956-1962, 1966-1987), Əziz Əzizov (1987-2001), Tacəddin Məmmədov (1993 may iyun), Nadir Atakişiyev (2001-2011), Oqtay Məmmədov (2011-2016), Varis Yaqubov (2016-2020) “Qəbələ” qəzetinin redaktoru vəzifəsində çalışıblar.

Bu dövrdə qəzetimiz dəfələrlə Azərbaycan Respbulikası Ali Soveti Rəasət Heyətinin və Respbulika Jurnalistlər Birliyinin fəxri fərman və diplomlarına layiq görülüb.

Qəzetimizin ana xəttini ölkəmizin sosial-iqtisadi inkişafında qazanılan uğurları və qarşıda duran vəzifələri təbliğ etmək təşkil edir.

Onu da qeyd edək ki, qəzetimizi ərsəyə gətirənlər kiçik bir kollektivdir. Redaktoru isə Azad Məmmədovdur.

Redaktorumuzda daxil olmaqla yaradıcı əməkdaşlarımız qəzet materiallarının yazılması, açıq-aydın və qəzet üçün yaradıcı şəkillərin çəkilməsi səhifələrin dizayn olunması daha çox əmək sərf olunan işlərdir. Ona görə də bu qəzetdə çalışan hər kəs öz işinə məsuliyyət hissi ilə yanaşır. “Əkinçi” qəzeti ilə başlayan bir yolu “Qəbələ” qəzeti də onun ideya xətti ilə özünəməxsus şəkildə davam etdirir. Qəzetimiz 88 illik bir tarix yaşayaraq həmişə xalqın mənafeyinə xidmət edir və etməyə davam edəcək.

**İLAHƏ.**